**UOT 82-31**

# ESTETİKANIN GÖZƏLLİK KATEQORİYASI VƏ BƏDİİ ƏDƏBİYYATDA İNİKASI

**Şəfa FƏRƏCOVA**[*]

Məqalə redaksiyaya daxil olmuşdur: 2 oktyabr 2024; çapa qəbul edilmişdir: 12 fevral 2025; online-da çap edilmişdir: 19 mart 2025.

Received: 2th of October, 2024; accepted: 12th of February, 2025; published online: 19th of March, 2025.

**Açar sözlər:** *Viktor Hüqo, Notr-Dam kilsəsi, gözəllik, romantizm, estetika*

## Giriş

Ədəbiyyat estetik dəyərləri, ictimai münasibətlərə baxışı formalaşdıran mühüm vasitədir. Dünya ədəbiyyatının incilərindən sayılan Viktor Hüqonun "Paris Notr dam kilsəsi" (1831) romanı təkcə tarixi bir dövrün təsviri ilə deyil, həm də insan təbiətinin, estetik duyumunun, mənəvi ölçülərinin dərin təhlili ilə seçilir. Klassizmlə romantizm arasında körpü yaradan bu əsər bir məhəbbət hekayəsi olmaqla yanaşı, həm də ictimai quruluş, dini inancların tənəzzülü, şəxsiyyətin mənəvi azadlığı haqqında zəngin fəlsəfi və estetik düşüncələr təqdim edir.

Hüqo orta əsrlərin sonlarında baş verən hadisələri təsvir etməklə keçmişə qayıtmağa və müasir dövrün problemlərini əks etdirməyə çalışır. Romanın əsas personajları – Kvazimodo, Esmeralda və Klod Frollo estetik ziddiyyətlər üzərində qurulub, gözəllik anlayışının təkcə zahiri forma ilə deyil, həm də daxili mənəvi məzmunla bağlı olduğunu vurğulayırlar. Bu kontekstdə Kvazimodonun fiziki çirkinliyi və mənəvi gözəlliyi yazıçının estetik düşüncəsinə böyük töhfə verir. Beləliklə, Hüqo klassik estetik kateqoriyalara meydan oxuyur və gözəlliyi həm fiziki, həm də mənəvi aləmdə təhlil etməyə çalışır.

Bu məqalədə əsərin strukturunda bədii obrazlarla təmsil olunan gözəllik və çirkinlik münaqişəsinin fəlsəfi-estetik əsasları təhlil edilir. Həmçinin bu anlayışların Platon, Aristotel və Plotin kimi antik və klassik filosofların konsepsiyaları ilə nə dərəcədə rezonans doğurduğunu və onlardan nə ilə fərqləndiyini araşdırır. Bu işin əsas məqsədlərindən biri gözəllik anlayışını təkcə vizual müstəvidə deyil, həm də mənəvi müstəvidə qiymətləndirməkdir. Beləliklə, bu tədqiqat "Paris Notr Dam kilsəsi" əsərindəki estetik təhlillərin fəlsəfi əsaslarını, ictimai və tarixi şüurla əlaqəsini, müasir estetik fikrə təsirini üzə çıxarmaq məqsədi daşıyır.

### 1. "Paris Notr-Dam kilsəsi"

Dünya ədəbiyyatının ən məşhur əsərlərindən olan "Paris Notr-Dam kilsəsi" romanında çoxdan unudulmuş dövrün tarixi təsviri ilə yanaşı, sadə insanın günlük yaşamı və dəyərləri də canlandırılaraq kütləvi tarixi şüur, dünya və insan haqqındakı təsəvvürlərin spesifikası, insanların inam və ümidləri əks olunur. Əsərdə insanın azad fikirliliyi və mənəvi müstəqilliyi konsepsiyası Fransadakı cari hadisələrlə əlaqələndirilir. Orta əsrlərin sonlarından bəhs edən romanda Viktor Hüqo gələcəyi keçmişin varisi olaraq

[*] *magistrant, Bakı Avrasiya Universiteti*
*e-mail:* Shafafaracli@gmail.com
**https://doi.org/10.30546/25194011.2025.14.1.028**

göstərməyə çalışmışdır. "*Hüqo müasir həyatın eybəcərliklərini göstərmək üçün tarixi keçmişə qayıdaraq XV əsr Paris həyatını təsvir edən "Paris Notr-dam kilsəsi" (1831) romanını yazır. Tədqiqatçı göstərir ki, əsərdə qarşı-qarşıya qoyulan şər qüvvələrlə xeyrin mübarizəsi nikbin nəticə ilə verilmişdir. Xeyir daima qələbə çalacaq. V.Hüqo həyatın nə qədər dəhşətli səhnələrini təsvir etsə də bütün yaradıcılığı boyu nikbin qalmışdır. O, ölərkən belə gülə-gülə ölmüşdür"* (2). Əsərdə dini inamın zəifləməsi, əsrlər boyu toxunulmaz olan ehkamlara qarşı şübhə, yeni təlimlərin bolluğu cəmiyyətin öz inkişafının son hədəfinə – demokratiyaya yaxınlaşmasına sübut kimi göstərilir. Yazıçı təsvir etdiyi dövrün əlamətlərini romanın əsas qəhrəmanlarının – Esmeraldanın, Kvazimodonun və Klod Frollonun xarakterlərində və talelərində təcəssüm etdirmişdir.

1831-ci ildə nəşr olunan "Paris Notr-Dam kilsəsi" romanı klassik ədəbiyyatın şah əsərlərindəndir. Bu əsər yazıçının din-cəmiyyət-təbiət trilogiyası ilə bağlı ilk kitabıdır. Əsər çoxları tərəfindən "Notr-Damın Qozbeli" kimi də tanınır. "*Əsərdə XI Luis zamanında, XV əsr Parisindən bəhs edilir. Şəhəri dar, qaranlıq küçələr ilə, yaxşı-pis insanları ilə, o dövrə xas xüsusiyyətləri ilə, romantik bir sevgi hekayəsi arxasında canlı bir formada gözlərimizin önündə sərgilənmişdir. Romanda əsas yer tutan hadisə bir sevgi hekayəsidir. Lakin bu hadisənin qəhrəmanları tarixi şəxsiyyətlər deyil, adi təbəqənin nümayəndələridir. Tarixi şəxsiyyətlər isə bu əsərin köməkçi personajlarıdır. Əsas qəhrəmanlar kilsə zəngini çalan Kvazimodo, yanındakı keçisi ilə küçələrdə rəqs edən Misir əsilli çox gözəl olan qaraçı Esmeraldadır. Əsas romantik ünsürlər bu iki şəxs üzərində qurulmuşdur"*(5).

Türkiyəli tədqiqatçı Muharrəm Şenin də dediyi kimi, Notr-Dam kilsəsi orta əsrləri təmsil edərək, sanki romanın əsas qəhrəmanına çevrilmişdir. Hadisələrin əsas hissəsi bu kilsədə baş verir. Hüqo bu kilsəni əsərdə oxucusuna uzun-uzadı təsvir edir, bütün gözəlliyini gözlərimizin önünə sərməyə çalışır. Yazıçının əsl hekayə etmək istədiyi XV əsr Parisi deyil, bütün Orta dövrüdür. Bunu da XV əsrdə bir neçə yüzillik keçmişi olan Notr-Dam kilsəsi vasitəsilə etməyə çalışır.

Tarix haqqında yazmaq üçün bir eşq hekayəsi vasitə olaraq istifadə olunmuşdur. Təbii ki, heç bir tarixi şəxsiyyət olmayan romanın qəhrəmanları da bir vasitədir. Yazıçını belə bir əsər yazmağa vadar edən klassik yazarlar ilə romantiklər arasında gedən rəqabət, savaş olmuşdur. Çünki klassik yazarlar orta dövrü xor görən bir düşüncəni əks etdiriblər, romantik yazarlar isə klassiklərin əksinə olaraq, bu dövrə könül vermiş və həmin dövrü ucaltmışlar. Viktor Hüqo isə bu 2 düşüncəni öz əsərində əks etdirmişdir.

Əsərin bir digər özəlliyi isə romanın qəhrəmanı Kvazimodonun çox çirkin bir məxluq olmasıdır. Kvazimodo qozbel, topal, bir gözü kor, olduqca çirkin, fiziki cəhətdən qüsurludur. Hüqonun belə birini romanın qəhrəmanı olaraq seçməyi, təbii ki, təsadüfi deyildir. Bu seçimin özü də klassisizmə qarşı bir reaksiya idi. Klassik yazıçılar, gerçəyin yalnız bir tərəfini görmüş və həmişə gözəl olanı işləmişlər. Halbuki, çirkinlik də bir gerçəkdir. Kvazimodo çirkindir, qorxuncdur, amma ruhi, daxili bir gözəlliyi vardır. Hüqoya görə, yazıçı hür olmalıdır. Onun fikrincə, şeir böyük bir bağçadır və burada qadağa olunmuş meyvə yoxdur. Bu düşüncəni romanda da təsdiq etmiş, Kvazimodonu yaratmışdır. Onun əsərlərində yalnızca gözəl olan, ali, uca olan yoxdur. Gözəllər gözəli Esmeraldanın yanında çirkinliyi ilə ad salmış bir Kvazimodo vardır. Çirkinlə gözəl bir aradadır. Eynilə təbiətdə olduğu kimi, Kvazimodo fiziki cəhətdən çirkin, ruhən isə ali və gözəldir.

Müəllifin bir-birinə zidd iki obrazı seçməkdə məqsədi gözəlliyin və çirkinliyin insanları aldatmasına qarşı olmasıdır. Öz çirkinliyi ilə ad qazanmış Kvazimodonun timsalında daxili gözəlliyə diqqət çəkmişdir. Həqiqi gözəlliyin zahiri deyil, əslinin daxilində gizlənmiş olduğunu göstərmişdir. Həqiqət axtaran, bunu tapmaq istəyənlər əslində baxmağı bacaranlardır. Baxmağı bilən o gerçəkliyi görməyə qadirdir. Çirkin məxluq

olaraq bilinən Kvazimodonın daxilində saxladığı gözəlliyi heç bir obrazda görə bilmirik.

**2. "Gözəllik" anlayışı**

İnsanların həyatda və bədii əsərlərdə gördükləri gözəllik, ülvilik, qəhrəmanlıq təzahürləri bilavasitə estetik hissləri oyadır. İnsanın dolayısı ilə gördüyü çirkinlik, faciə, komediya təzahürləri bu hissləri yaradır. Biz çirkin və gülünc keyfiyyətlər gördükdə onlardan qurtulmaq, gözəlliyi bərpa etmək istəyirik. Faciəli həyat hadisələri bizi həyatın mənası və onun yüksək idealları haqqında düşünməyə sövq edir. Gözəllik bütün bu təsadüflərdə qətiyyət yaradır.

Gözəlliyin fərqli mənalarla gündəmə gəlməyinin səbəbi tarixlə əlaqəlidir. Belə ki, bu anlayış bəşəriyyətin keçid mərhələlərində də aktiv planda idi. Hərfi mənada götürsək, gözə və qulağa xoş gələn, müəyyən uyğunluq və nizamı özündə əks etdirən, izlənilməsi könül oxşayan, insanda heyranlıq yaradan, çirkinin əksi kimi dəyərləndirilən, bəyənilən, əxlaqa, mədəniyyət qaydalarına uyğun olan formasında izah edə bilərik. Bu anlayış daha çox orta əsr fəlsəfəsinə məxsus olan ziddiyyətlərin qarşıdurmasından yaranmışdır. Məzmun etibarilə dərin və çoxşaxəlidir, həm subyektiv, həm də obyektiv düşüncələri özündə əks etdirir. Subyektiv gözəllik hər kəsin fərqli baxışlarına əsaslanır. Obyektiv gözəllik isə estetik qanunlarına uyğun olan əşyalarda müşahidə olunur. "*Bütün elmlər kimi estetika da ictimai təcrübədən doğur. O, insanların estetik fəaliyyətinin, incəsənətin təcrübəsini, cəmiyyətin gözəllik haqqındakı təsəvvürlərinin, estetik tələblərini və təfəkkürünü ümumiləşdirir. O, təcrübədən doğur, nəzəriyyəyə çevrilir və yenidən həyatın qaynağına dönərək, həyat məsələlərinin həllinə xidmət edir. O, həqiqi gözəlliyi yalançı gözəllikdən, gözəlliyin mahiyyətini gözəlliyin saxta təzahürlərindən seçməyi, həyatda, məişətdə, evdə, ictimai münasibətlərdə gözəlliyi qiymətləndirməyi öyrədir"* (3).

Mifoloji mədəniyyət bəşər tarixində yaşamı çox fərqli anlayışlarla formalaşdırmışdır. Bu mənada Yunan Allahları gözəlliyin simvolu olaraq görülmüş və Olimpdəki Allah heykəlləri qüsursuz hazırlanması ilə diqqəti cəlb edirdi. Demək olar ki, hər mifologiyada gözəlliyi, çirkinliyi, həzzi və pisliyi təmsil edən Allahlar, ya da mifoloji xarakterlər yer almaqdadır. Buna ən bariz nümunə kimi Yunan mifologiyasındakı gözəllik Tanrısı Afroditanı göstərə bilərik. *"Gözəlliyin bir üst simvolu olan Afrodita alleqorik bir obraz olaraq yunan mədəniyyətində böyük bir yerə sahib olub bir çox mənada sənətə və fəlsəfəyə təsir etmişdir"* (7).

Allahın əsəri olan gözəl kainat düşüncəsi bütöv bir gözəllik anlayışını düşünməyə səbəb olmuşdur. Müqəddəs kitablarda yaradılışın altı günlük müddətində ərsəyə gələn hər şeyin yaxşı və gözəl olduğu düşünülür. Dünya Allah tərəfindən müəyyən bir say, ölçü və uzunluqda riyazi bir dəqiqliklə yaradılmışdır. Platon ideal gözəlliyin simvolu olaraq dünyanı əsas götürmüş və gözəllik anlayışının fəlsəfi yöndən araşdırılması antik dövrlərdə yaşamış Platona qədər gedib çıxmaqdadır. "Gözəllik anlayışına estetik yöndən yaxınlaşdıqda bu anlayışın "estetik dəyər" qavramında özünə xüsusi bir yer edindiyini görə bilirik. Çünki biz bir əşyanı estetik yöndən təhlil ediriksə, ona gözəllik aspektindən baxıb dəyərləndiririk. Nümunə olaraq bir rəsm tablosunun oyandırdığı bəyənmə hissi qarşısında estetik yöndən fikir bildirərkən fikrimizi ifadə edə bilmək üçün "çox gözəl bir rəsmdir" kimi ifadələr işlədirik" (8).

Estetik şüur və təfəkkür sosial təcrübədə yaranan zövqlərin və bədii təsəvvürlərin, görüşlərin və ideallarin məcmusundan yaranmışdır. Estetik poeziya ictimai şüurun bir hissəsidir, insanın estetik fəaliyyətinin təəssüratının məhsuludur və real həyatdan bəhrələnmədir. Estetik duyğu və poeziya bizə həyat haqqında düzgün təsəvvür yaradır. Onların vasitəsilə biz təbiəti, həyatı və cəmiyyəti, bizi əhatə edən mühitin gözəlliyini, bütün əzəməti öyrənirik. Bu səltənətin zinəti, şərəfi və iftixarına malik olan insandır.

Dünyanı dəyişən, gözəlləşdirən insan!

Platonun fikrincə, estetika ümumilikdə gözəllik nəzəriyyəsi deyil, gözəllik fəlsəfəsi, yəni gözəllik nəzəriyyəsinin ən yüksək zirvəsi idi. *"Platonun estetik təlimində estetika gözəllik nəzəriyyəsi kimi yox, gözəllik fəlsəfəsi kimi səciyyələndirilmişdir. Bu təlimdən məlum olur ki, gözəllik nəzəriyyəsinin vəzifəsi, ümumiyyətlə, gözəlliyin təsvirini qiymətləndirməkdən, gözəlliyin obrazlı ifadəsinin konkret metodlarını işləyib hazırlamaqdan ibarətdir. Estetikanın gözəllik fəlsəfəsinin vəzifəsi isə gözəlliyin mahiyyət əlaqələrini aşkara çıxarmaqdan ibarətdir" (1).*

Platonun estetik təliminə görə, gözəllik, ümumiyyətlə, insan gözəlliyində ən yüksək zirvəyə çatır. Lakin Platona görə, insan gözəlliyi də nisbidir. İnsanın fiziki gözəlliyi ideya ilə birləşdikdə ümumbəşəri məna kəsb edir. Platonun bu fikrindən qaynaqlanan dərin məna ondan ibarətdir ki, insan gözəlliyinin ülviliyi fiziki gözəlliyin mənəvi zənginliklə tamamlanmasıdır. Gözəllik nə qədər mükəmməl olsa da, ideya ilə birləşmədən universal gözəlliyə çevrilə bilməz. İdeya Platonda gözəlliyin məğzidir. Estetikanın əsas vəzifəsi həmin mahiyyəti üzə çıxarmaqdır. "*Burada da Platon son həddi tapa bilmir. Odur ki, özünün "Böyük Gippi" əsərini uğursuz sonluqla bitirir. Əsərin qəhrəmanı sofist Gippi mütləq gözəlliyi axtarıb tapa bilmir. Məhz bu səbəbdən Platon gözəllik ideyasını bir prinsip kimi real gözəllikdən ayırır və birinciliyi ideyaya verir" (1).*

Platonun düşüncəsinə görə, gözəllik bir fikir olaraq dəyərləndirilmiş, başa düşən bir insanın istər təbiət gözəlliyi olsun, istərsə də, sənətdəki bir şeyi ancaq gözəllik anlayışından aldığı pay qədər qiymətləndirmişdir. Yəni düşüncəmizdəki gözəllik anlayışı nəyə uyğundursa, gördüyümüz varlıqları da ona uyğun olaraq gözəl olub-olmamağı mövzusunda təhlil edirik. Platon gözəlliyi "Meydana gəlməyən, yox olmayan, hər hansısa bir şeyə çevrilməyən tək, öz-özünə var olan, sonsuz və ən yüksək fikir" (9) formasında tamamlamışdır. Platonun fəlsəfi sistemdə ideya nəzəriyyəsinin böyük çəkiyə malik olmasının nəticəsi olaraq onun gözəllik anlayışına baxışı, hissi məlumatların həqiqətə aid məlumat kimi qəbul etmədən əşyaların mənşəyinin ideyalar sahəsində olduğunu iddia etməsi ilə təsirlənmişdir. Bu düşüncə isə onu Aristoteldən fərqləndirir. Bu kontekstdən yaxınlaşsaq, Platonun qocalıq çağında gözəlliyin harmoniya və müəyyən nisbətlər çərçivəsində nəzərdən keçirilə biləcəyi fikri Platon və Aristotel baxımından oxşarlıq kimi qəbul edilə bilər. Gözəllik anlayışının ideyalardan gəlib-gəlməməsi baxımından qiymətləndirildikdə isə, Aristoteldə bu anlayışa fərqli baxışlar meydana çıxır.

Aristotel gözəllik anlayışını konkret bir obyekt, bir əşya ilə əlaqələndirir və onun fikrincə, bir şeyin gözəl adlandırılması üçün ilk növbədə canlı, təbii, ahəngdar və mütənasib olmalıdır. Xülasə, Aristotel Platondan fərqli olaraq gözəlliyin mənasını gözlə görünən varlıqlarda görür. O gözəlliyi, *"nizamlılıq, uyğunluq və müəyyən bir məhdudiyyət"* (4) olaraq dəyərləndirirdi. Aristotel "Poetika"nın yeddinci bölümündə gözəl anlayışını izah edərək deyir ki, nə çox kiçik bir şey gözəl ola bilər, çünki qavrayışımız hiss olunmayacaq qədər kiçikliyin hüdudlarında dağılır, nə də çox böyük bir şey gözəl ola bilər, çünki belə bir şey bir anda qavranılmaz və onun birliyi və bütövlüyü baxanda itir. O, gözəlliyin riyazi nisbətlər və harmoniya ilə əlaqəli olduğunu dilə gətirirdi (5). Yunan mütəfəkkirləri əlavə olaraq qeyd edirdi ki, *"metafizikada incəsənət simvolu kimi təqdim olunan gözəl yaradılmış bir varlığın gözəl sayılmasını təmin edən əsas meyarlara "dəqiqlik" və "simmetriya" anlayışlarını da əlavə etmişdir"* (5). Beləliklə, Aristotel gözəlliklə bağlı öz düşüncələrinə onun obyektiv və formal meyarlara malik olduğu fikrini də əlavə etdi. Aristotel müəllimi Platon kimi gözəllik anlayışını ideya ilə əlaqələndirmədiyi üçün, onun fikrincə, var olan hər şey gerçəyə uyğun ölçüdə olduqda gözəl sayılmalıdır. Bu uyğunluq ölçüsünə isə nisbət, simmetriya və dəqiqlik aid edilir. Nəticədə yaranan gözəllik və estetikanın təməlində riyazi elementlər durur.

Gözəllik mövzusunda Platon və Aristotelin fikirləri ilə yanaşı Plotinin düşüncələri

də diqqətimizi cəlb edir. Çünki o həm Platon, həm də Aristotelin fikirlərini dəyərləndirməyi bacarmış və Platonun fikirləri ilə həmfikir olsa da, öz şəxsi düşüncələri ilə onun davamçısı olaraq qalmamışdır. Onun fikrincə, gözəllik anlayışı duyğuların daha dərinində və ruhani aləmlə bağlıdır. Bu baxımdan Plotinin metafizikaya dair düşüncələrinin gözəllik anlayışına ciddi təsir etdiyini açıq-aydın görə bilirik. Deyə bilərik ki, Plotində metafizika anlayışı bilavasitə mistizmə əsaslanır. Plotindəki metafizika anlayışı "Bir" ilə başlayır və ağıl, kainatın ruhu, fərdi ruh, təbiət və maddi aləmi keçdikdən sonra bütün varlığın təməlində duran mütləq "Bir" in əsasında sonlanır" (6).Burada nəzərdə tutulan "Bir" anlayışı Tanrı ilə əlaqəlindirilə bilər. Beləliklə, məqsəd fərdi ruhlardan başlayaraq "Bir"ə, yəni mütləq Tanrıya getməkdir. Belə bir vəziyyətin nəticəsində "Mistisizm zərurət olaraq yaranır və estetika baxımından Plotində mistik bir estetika meydana çıxır" (8). Bu halda, Plotindəki estetika və gözəllik anlayışı onun düşüncəsində yer alan bir sistemin bütövlüyü çərçivəsində təhlil edilməlidir. Bu bütünlük də onun metafizikaya dair düşüncələri əsasında reallaşır.

Plotin "Doqquzluqlar" əsərində "Gözəllik haqqında" başlığında gözəlliyə aid düşüncələrini bu formada qeyd edir: "Gözəl bütün görmə sahəsində, eşitmə sahəsində, söz və söz birləşmələrinin qovuşma sahəsində və bütün musiqilərdə vardır. Əgər duyğu aləmindən kənara çıxarsaq, gözəl işlər, hallar, elmlər və, nəhayət, gözəl fəzilətlər də görə bilərik" (10).Lakin o bu izahı verdikdən sonra eyni paraqraf içərisində yenidən bu suallarla müraciət edir: "Görəsən, bütün bunlardan da üstün olan gözəl bir şey varmı? Bu araştırılmalıdır" (10). Bu suala cavab olaraq: "Bədən kimi bəzi bəlli olan real varlıqların özlərindən ötrü deyil, nədənsə pay alma yolu ilə gözəl olduğunu, lakin əxlaq kimi bəzi mənəvi dəyərlərin öz-özlüyündə gözəl olduğu qənaətinə gəlir" (8). Bu bölgü Plotinin iki fərqli gözəllikdən bəhs etdiyini göstərir. Biri gördüyümüz əyani gözəllik, digəri isə gözəlin özüdür-mənəviyyatı. Ruh gözəlliyi görür, anlayır və bu anlama nəticəsində gözəl olaraq qəbul ediləbiləcəkləri tanıyır və gözəl olan varlığı gördükdə sanki onu tanıyırmış kimi onunla qarşılaşmaqdan sevinc duyur. Amma ruh baxdığı yerdə çirkin bir şeylə qarşılaşdıqda ondan qaçaraq uzaqlaşmaq istəyir. Bu da Plotinin gözəllik mövzusunda simmetriya, dəqiqlik kimi anlayışların olduğunu inkar etdiyini göstərir və öz düşüncələrində Aristoteldən fərqləndiyini deməyimizə əsas verir. Qısacası, gözəlliyi bir bütün olaraq dəyərləndirmiş və onu sadəcə duyğularda, mənəvi aləmdə axtarılmalı olduğu qənaətinə gəlmişdir.

Xalqın estetik təfəkküründə insan gözəlliyinə əsasən yüksək mənəvi ləyaqət baxımından yanaşılır. Hər şeydən əvvəl zəhmətkeşlər əməyi insan gözəlliyinin əsas cəhəti hesab edirlər. Çünki əmək yaşamaq üçün ilkin şərt, həyat isə gözəllik mənbəyidir.

Dünyanın estetik qavrayışı əşyaların və insanların mürəkkəb qarşılıqlı təsirindən ibarətdir. Obyektdən yaranan estetik hiss olmadan gözəlliyi dərk etmək olmaz. Biz yalnız məmnuniyyətlə, sakit və xoş bir coşqunluqla obyektin gözəl olduğunu müəyyən edirik. Doğrudur, həzz nisbətən fərqli hisdir. Məsələn, bioloji həzz, fiziki həzz və s. Gözəllik hissi həmişə ruhən həzz almaqdan ibarətdir.

Yuxarıda sadaladıqlarımıza əsasən deyə bilərik ki, gözəllik anlayışı sadəcə görünüşdə və zahirdə deyildir. Əsl gözəllik insanın ruhunda, qəlbində, mənəviyyatında ola bilir. Bəzən gözəl gördüyümüz həqiqətdə çirkin, zahirən çirkin gördüklərimiz isə gözəl ola bilər. Biz ruhumuza, zövqlərimizə, hisslərimizə xitab edən, mənəvi həzz verən, daxilən xoşbəxt hiss etdirən hər şeyi gözəl olaraq qəbul edə bilirik. Bu səbəbdən də hər kəsin gözəllik anlayışı müxtəlif mənalara gedib çıxa bilir.

Gözəllik anlayışı, ənənəvi olaraq fiziki görünüş və zahiri xüsusiyyətlər üzərində formalaşsa da, müasir tədqiqatlar göstərir ki, gözəllik yalnız xarici formalarla məhdudlaşmır. Əslində, gözəllik daha çox insanın daxili aləmində, mənəvi dünyasında öz əksini tapır. Bir çox hallarda, zahiri gözəllik təəssüratı altındakı obyektlər və şəxslər, əslində,

mənəvi cəhətdən kifayət qədər gözəl olmaya bilərlər. Eyni zamanda, xarici görünüşü ilə gözə çarpmayan, hətta bəzən "çirkin" hesab edilən obyektlər və insanlar, daxili zənginlikləri və mənəvi xüsusiyyətləri səbəbindən əsl gözəllik təcəssümünə çevrilə bilərlər.

Bunun səbəbi, insanın gözəlliyi dərk etməsində subyektiv elementlərin mühüm rol oynamasıdır. Gözəllik hissi yalnız vizual qəbul deyil, eyni zamanda ruhumuza, estetik zövqlərimizə və emosional dünyamıza təsir edən, mənəvi həzz verən elementlərdən qaynaqlanır. Bu səbəbdən, gözəllik anlayışı hər bir insan üçün unikal və fərqli mənalara sahib ola bilər. Fərdi təcrübələr, estetik meyarlar və mənəvi dəyərlər müxtəlifliyi, gözəllik anlayışının nisbi və çoxölçülü olmasını şərtləndirir. Beləliklə, gözəllik yalnız obyektlərin zahiri formasında deyil, onların ruhani və mənəvi təbiətində də öz əksini tapa bilər.

**Nəticə**

Viktor Hüqonun "Paris Notr Dam kilsəsi" romanı təkcə tarixi bir dövrün bədii hadisələrini deyil, həm də gözəlliklə çirkinliyin, inamla şübhənin, azadlıq və məhdudiyyətlərin fəlsəfi-estetik konfliktinin zəngin təzahürüdür. Əsərin mərkəzi personajları – Kvazimodo, Esmeralda və Klod Frollo estetik və əxlaqi ziddiyyətləri çatdırmaqla oxucunu təkcə vizual obrazlarla deyil, həm də dərin mənəvi təzadlarla qarşı-qarşıya qoyur.

Roman Viktor Hüqonun estetik yanaşmasında klassik və romantik baxışların vəhdətini əks etdirir. Yazıçı ənənəvi gözəllik meyarlarına meydan oxumaqla insanın daxili aləminin, mənəvi sərvətinin üstün estetik dəyərə malik olduğunu nümayiş etdirməyə çalışır. Bu, Kvazimodonun fiziki qüsurlarına baxmayaraq, üstün əxlaqi keyfiyyətlərə malik kimi təsvirində özünü göstərir. Viktor Hüqonun estetik konsepsiyaları Platon, Aristotel və Plotin kimi filosofların nəzəri yanaşmaları ilə həm paralel, həm də fərqli cəhətləri bölüşür. Platon gözəlliyi ideyalarda, Aristotel isə əşyalarda axtardığı halda, Hüqo xarici və mənəvi gözəllik arasındakı harmoniyaya diqqət yetirərək bu anlayışları sintez etmişdir.

Beləliklə, "Paris Notr Dam kilsəsi" romanı təkcə ədəbi-tarixi baxımdan deyil, həm də estetik-fəlsəfi fikir kontekstində dəyərli zəngin bir mənbə təşkil edir. Əsərdə təqdim olunan gözəllik və çirkinlik anlayışları oxucunu estetik meyarları yenidən düşünməyə, zahiri görkəmlə daxili mahiyyət arasındakı fərqləri anlamağa sövq edir. Bu da əsəri təkcə ədəbi nümunə kimi deyil, həm də fəlsəfi-estetik təhlil mövzusu kimi maraqlı edir.

## ƏDƏBİYYAT

1. Ələkbərov S. İncəsənət və estetika. Bakı: İşıq, 1992, s. 25-26.
2. Məmmədova K. Əli Sultanlının tədqiqində Romen Rollan və Viktor Hüqo yaradıcılığı //. Filologiya məsələləri. 2014, №1, 449 s.
3. Məmmədov M. Estetika haqqında söhbətlər. Bakı: Gənclik, 1975, 14 s.
4. Çüçen A. Felsefeye Giriş. İstanbul: Sentez Yayıncılık, 2016, 298 s.
5. Aristoteles. Metafizik. çev. Y. Gurur Sev. İstanbul: Pinhan Yayıncılık, 2023, 1078 s.
6. Tombul B. Plotinos ve Farabide Estetik ve Güzellik. Yüksek Lisans Tezi. Kırıkkale Universitesi, 2019, 48 s.
7. Demiralp D. Söylenceden Düşünebilme Kıbrıslı Afrodit – Hesiodostan Proklasa Bir aşk ve Güzellik Tanrıçasının Öyküsü, LAÜ Sosyal Bilimler Dergisi, 2011, 1-104 s.
8. Tunalı İ. Felsefeye Giriş. İstanbul: Altın kitaplar, 2009, 168 s.
9. Uyanık M. Felsefi Düşünceye Çağrı. Ankara: Elis Yayınları, 2012, 265 s.
10. Plotinos. Dokuzluklar I. Çev. Zeki Özcan. İstanbul: Alfa Aktüel Yayınları, 2007, 217 s.

***Резюме***

***Шафа Фараджова***

***Категория красоты эстетики и ее обзор в художественной литературе***

В статье даны общие сведения о творчестве Виктора Гюго и произведении «Парижский собор Парижской Богоматери». Здесь, наряду с проявлениями романтической литературы, уделяется внимание ее связи с историей. Для романтиков первостепенное значение имели темы «красоты» и «истории», а Виктор Гюго умело сочетал эти темы в своем творчестве. В качестве средства повествования использовалась история любви. Очень важную роль в тематической структуре романа сыграли и герои Гюго, не являющиеся историческими личностями. Именно конкуренция и война между писателями-классиками и романтиками побудили писателя написать такое произведение. Потому что если писатели-классики отражали мысль, презиравшую Средневековье, то писатели-романтики, в отличие от классиков, обращали внимание на этот период и превозносили его. Гюго этим произведением писал против классиков, прославил культурное наследие Средневековья и пошел против традиций того времени, присвоив его. Его работы служат мостом, воплощающим разницу между классикой и романтикой. Виктор Гюго отразил эти две идеи в своем творчестве. Затрагивалось сопоставление той темы, которой сочувствовали и увлекались писатели-романтики, с литературным направлением романтизма, к которому писатели-классики не проявляли интереса. Показан анализ понятия красоты, затронутого основными образами, выбранными автором, понятие красоты в эстетике и то, как оно отражается в художественной литературе. При этом в данное произведение включена связь понятия красоты и жизни, а также отражение эстетики в реальной жизни. Понятие «красивое» может быть представлено в разных формах. По сути, это означает красивые концепции. Его чаще используют для обозначения существ, которых можно увидеть, услышать и почувствовать. Например, мы можем назвать красивой мелодию, пейзаж, произведение искусства или внешний вид человека. Эстетическое восприятие мира состоит из сложного взаимодействия вещей и людей. Невозможно понять красоту без эстетического чувства предмета. Мы определяем объект как красивый только с удовольствием, спокойствием и приятным энтузиазмом. Правда, удовольствие бывает разное, например, биологическое удовольствие, физическое удовольствие и т. д. Чувство красоты всегда связано с духовным наслаждением. Были рассмотрены взгляды Аристотеля и Платона по этому вопросу.

***Ключевые слова***: *Виктор Гюго, собор Парижской Богоматери, красота, романтизм, эстетик*

***Summary***

***Shafa Farajova***

***The Beauty Category of Aesthetics and its Review in Fiction Literature***

The article provides general information about the work of Victor Hugo and the work "Paris Notre-Dame Cathedral". Here, along with the manifestations of romantic literature, attention is paid to its relationship with history. For the Romantics, the themes of "beauty" and "history" were of primary importance, and Victor Hugo skillfully combined these themes in his work. A love story was used as a vehicle to tell the story. Hugo's heroes, who are not historical figures, also played a very important role in the thematic structure of the novel. It was the competition and war between the classical writers and the romantics that prompted the writer to write such a work. Because if the classical writers reflected a thought that despised the Middle Ages, the romantic writers, contrary to the classics, paid attention to this period and exalted it. Hugo, with this work he wrote against the classics, glorified the cultural heritage of the Middle Ages and went against the traditions of the time by appropriating it. His work acts as a bridge that embodies the difference between the classics and the romantics. Victor Hugo reflected these two ideas in his work. The comparison of that topic, which romantic writers sympathized with and gave heart to, the literary trend of romanticism, which classical writers did not show interest in, was touched upon. The analysis of the concept of beauty touched on by the main images chosen by the author, the concept of beauty in aesthetics and how it is reflected in fiction is shown. At the same time, the relationship between the concept of beauty and life, as well as the reflection of aesthetics in real life, are included in this work. The concept of "beautiful" can be presented in different forms. It basically means nice looking concepts. It is more commonly used for beings that are seen, heard, and felt. For example, we can call a melody, a landscape, a work of art or a human appearance beautiful. The aesthetic perception of the world consists of a complex interaction of things and people. It is impossible to understand the beauty without the

aesthetic sense of the object. We define an object as beautiful only with pleasure, calm and pleasant exuberance. True, pleasure is different, for example, biological pleasure, physical pleasure, etc. The feeling of beauty is always related to spiritual pleasure. Aristotle's and Plato's views on the subject were addressed.

***Key words:*** *Victor Hugo, Notre-Dame church, beauty, aesthetics, romanticism.*

Redaksiya heyətinin üzvü fil.e.d., prof. Rzayev Seyfəddin Gülverdi oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.